RESPUBLİKA 20 oktyabr 2019-cu il

# Məhəmməd Hadi tərəfindən əsası qoyulmuş nümunəvi təhsil ocağında...



**Kürdəmir şəhərindəki 3 saylı tam orta məktəb rayonda uzun illərdir ki, nümunəvi təhsil ocağı hesab olunur. Məktəbin pedaqoji kollektivi illər öncə yaranmış ənənəni qoruyub saxlayır, gənc nəslin təlim-tərbiyəsində əldə olunan müvəffəqiyyətlərin sayını artırır. Ad-san, şan-şöhrət həmişə yaradılmış möhkəm təməl üzərində hasilə yetir. Bu təməlin tarixi isə keçən əsrin əvvəllərinə gedib çıxır.**

Məktəbin əsası 1905-ci ildə böyük mütəfəkkir, çətin və mürəkkəb tale yaşamış şirvanlı şair Məhəmməd Hadi tərəfindən qoyulmuş, Kürdəmirdə dünyəvi təhsil verən ilk dövlət məktəbi statusunu qazanmışdır. Məktəbdə həm müdir, həm müəllim işləyən böyük şair təsadüfi deyil ki, ən gözəl şeirlərindən birini "Lövhi Məkatib" (Məktəbin faydası" şeirini öz sevimli təhsil ocağına həsr etmişdir. İllər keçmiş Məhəmməd Hadinin adı təhsil ocağında həm şagirdlərə, həm də müəllimlərə əsl ilham mənbəyi bəxş etmişdir. Əlbəttə, çox şey tarixin arxivinə verilib. Zaman isə xeyli dəyişib. Məktəbin binasında müəyyən yenidənqurma işləri aparılsa da, bura illərin sınağına tab gətirmədi. Ölkə iqtisadiyyatında baş verən dinamik inkişaf böyük şairin müqəddəs ruhuna ehtiram nümayiş etdirdi.

2010-cu ildə köhnə məktəbin yerində hər cür infrastruktura malik gözəl bina tikildi. Pedaqoji kollektiv təlim-tərbiyəni müasir tələblər səviyyəsində qurmaq üçün öz ustalığını artırdı, qabaqcıl təcrübədən istifadə etdi. Təsadüfi deyil ki, dövlət başçımız cənab İlham Əliyevin sərəncamı ilə təhsildə fərqləndiklərinə görə məktəb müəllimlərindən 5 nəfəri "Tərəqqi" medalına, bir nəfəri "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. Cəmisi bir neçə gün bundan əvvəl təntənəli surətdə qeyd etdiyimiz Beynəlxalq Müəllimlər Günündə "Tərəqqi" medalının sevincini məktəbin riyaziyyat müəllimi, təcrübəli pedaqoq Rəhilə Mustafayeva yaşadı.

Rəhilə müəllimlə məktəbin direktoru Bayram Cəfərovun kabinetində görüşdük. Həddsiz dərəcədə təvazökar müəllim, əməyinə verilən qiymətə görə ölkə rəhbərinə minnətdarlığını bildirib özü barədə danışmaq istəmədi.

- Uzun illərdir Bayram müəllimin rəhbərliyi altında işləyirik, dedi. Bizim hər birimiz haqqında direktor danışsa, yaxşıdır.

Bayram müəllim Rəhilə xanımın pedaqoji fəaliyyətindən razılıqla söz açdı. Öyrəndik ki, Rəhilə Mustafayeva 1976-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bitirib. Bir il şəhərin "Köhnəbazar" deyilən hissəsində yerləşən məktəbdə işləyib, 1978-ci ildən 3 saylı tam orta məktəbdə riyaziyyat fənnini tədris edir. Müxtəlif kurslarda təcrübə keçib, pedaqoji ustalığını artırıb, biliyi sertifikatlarla dəyərləndirilib. Keçən il Respublika Təhsil naziri tərəfindən Fəxri fərmana layiq görülüb.

Bayram müəllim deyir ki, Rəhilə müəllimin ad-san sahibi olan yetirmələrinin adını çəksək, siyahı çox uzun alınar. "Təkcə onu deyim ki, müəllimənin dərs dediyi məzunlardan 100 nəfərdən çoxu 600-dən yuxarı balla ölkənin ali məktəblərinə qəbul olunmuşdur".

Məktəbin sinif otaqlarını gəzirik. Təmizlik, səliqə-sahman, müasir dizayn, ən başlıcası müəllimlərin, şagirdlərin gülümsər çöhrəsi bizdə xoş ovqat yaradır. Adama elə gəlir ki, bu ovqatda ölməz şairin müqəddəs ruhundan qopub gələn razılıq nidalarının da təsiri az deyil.

**Tofiq HÜSEYN,**
**"Respublika".**